# Zorakılığa məruz qalmış yeniyetmə və gənclərin psixoloji xüsusiyyətləri

**Aygün Ataş qızı Kərimli**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Bakı Dövlət Universiteti*
**E-mail:** aygun.karimli.atash@bsu.edu.az

**Rəyçilər:** psixol.ü.e.d., dos. R.V. Cabbarov,
psixol.ü.f.d., dos. E.A. Piriyeva

**Açar sözlər:** zorakılıq, yeniyetmə və gənclər, yaş xüsusiyyətləri, psixoloji travma, statistika, psixososial dəstək

**Ключевые слова:** насилие, подростки и молодежь, возрастные особенности, психологическая травма, статистика, психосоциальная поддержка

**Key words:** violence, adolescents and young people, age characteristics, psychological trauma, statistics, psychosocial support

Zorakılıq bu və ya digər formada təşəkkül tapmasından asılı olmayaraq, ümumilikdə hər sahədə və dünyanın istənilən yerində baş verən, həmçinin getdikcə artan ciddi və təhlükəli bir problemdir. Problemin narahatlıq doğuran tərəfi yalnız zorakılıqla bağlı hadisələrin sayındakı artım deyil. Eyni zamanda, zorakılığı törədən və zorakılığa məruz qalan insanların yaş etibarilə getdikcə daha aşağı kateqoriyadan olmalarıdır. Yəni, əvvəllər belə hallardan danışılarkən daha çox yetkinlik yaşına çatmış insanlardan bəhs olunurdusa, artıq yetkinlik yaşına çatmayan insanların törətdiyi və məruz qaldığı zorakılıq hallarından daha çox söhbət açılır. Bu isə hazırki ciddi narahatlığın və mövzunun aktuallığının əsas səbəbidir.

Belə ki, Birləşmiş Millətlər Təşkilatının (BMT) Uşaq Hüquqları Haqqında Konvensiyasının I hissə I maddəsində və eyni zamanda Azərbaycan Respublikasının Qanunvericiliyində 18 yaşına çatmayan hər bir kəsin 18 yaşa çatanadək bu Konvensiyanın məqsədləri, həmçinin dövlət qanunvericiliyi üçün uşaq qəbul edildiyinə müvafiq olaraq yeniyetməlik yaş dövrü (11-15 yaş) və erkən gənclik yaş dövründə (15-18 yaş) olan insanların da zorakılıqla bağlı yaşadığı ixtiyari hadisə uşaq zorakılığının tərkib hissəsi sayılır və buna uyğun qiymətləndirilərək tədbirlər həyata keçirilir (2, s. 1).

Məhz bu, yeniyetməlik və gənclik yaş dövründə olan insanların məruz qaldıqları zorakılıq halları müxtəlif ölkələrdə müəyyən elmi-tədqiqat işlərinin və araşdırmaların mövzusu olmuş və müxtəlif statistikalar müəyyənləşdirilmişdir. Bu statistikaların bir neçəsini nəzərdən keçirməklə həmin zorakılıq hallarının daha çox hansı səbəblərlə törədildiyini, həmçinin baş verənlərin yeniyetmə və gənclərdə hansı ciddi problemlərə yol açdığını qeyd etməyin əhəmiyyətli olduğunu düşünürük.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) yayımladığı 2016-cı ilin yekun hesabatında hər il 15 yaşına çatmamış 41 min uşağın öldürülməsi, həmçinin hər 13 kişidən biri ilə, hər 5 qadından birinin uşaq yaşlarında cinsi zorakı davranışla üzləşdiyi faktı qeyd olunmuşdur (10, s. 7).

Həmçinin ABŞ-da aparılmış bir araşdırmadan alınan nəticələrə görə ailədə 18 yaşına çatmamış cinsi zorakı davranışla üzləşən insanlar arasında kişilər 10-15%, qadınlar isə 20-30% təşkil edir. Belə halla qarşılaşan qız və oğlanların narkomaniya və homoseksuallığa meylinin artması da araşdırmanın nəticələrində qeyd olunmuşdur. Belə ki, araşdırmanın nəticələri hər 2

narkomandan birinin və homoseksualizmə meyilli olan oğlan və qızların əksəriyyətində uşaq yaşlarında cinsi zorakılığa məruz qalma təcrübəsinin olduğunu göstərmişdir (3, s. 152-200).

Eləcə də yaxın vaxtlarda Türkiyənin 17 şəhərində 1850 lisey şagirdi arasında keçirilən anket sorğusundan alınan nəticələrə baxdıqda zorakılıq mövzusunda ona məruz qalmaqla birgə, həm də zorakılığa şahid olmanın da ciddi önəm daşıdığını görmək olar. Belə ki, sorğuda iştirak edən 1850 lisey şagirdinin (9-11-ci sinif şagirdləri) dediklərinə görə, onlardan 74%-i ailədə zorakılıqla üzləşiblər. Həmçinin 65%-i özləri başqalarına qarşı zorakı davranış göstərdiklərini və 51%-i isə ailədə ata və anasının bir-birinə qarşı zorakı davranış göstərdiklərini ifadə etmişlər. Həmin şagirdlərin 17%-i müəllimləri, 24%-i özlərindən böyük qardaşları və 29%-i isə ataları tərəfindən zorakılığa məruz qaldıqlarını qeyd etmişlər (13, s. 65). Zorakılığa şahid olma halı və ailədə böyüklərin, eləcə də məktəbdə müəllimlərin uşaqlar üçün bir rol modeli olduqlarını və onların belə mənfi formada öz şəxsi nümunələri ilə uşaqlarda yaratdıqları təsirləri məqalənin davamında şərh edəcəyik.

Digər bir araşdırma isə Türkiyədə iki fərqli universitetin tələbələri arasında aparılmışdır. Araşdırmada 525 qız, 469 oğlan tələbə iştirak etmişdir. Bu 994 tələbənin 162-si birbaşa özlərinin müxtəlif növ zorakı davranışlara məruz qaldıqlarını bildiriblər. Universitet tələbələri arasında keçirilən başqa bir anket sorğusunda isə iştirak edən 1133 tələbənin də 264-ü ailə daxilində şəxsən zorakılığa məruz qaldıqlarını qeyd etmişlər. Onlardan 95-i oğlan, 165-i isə qız tələbələr olmuşdur (18, s. 290).

Elə Azərbaycanda da bu problem öz əhəmiyyətini ciddi şəkildə qorumaqdadır. Hansı ki, 2018-ci ildə Azərbaycan Uşaq Qaynar Xətt Xidmətinin koordinatoru özünün rəsmi açıqlaması ilə bunu ictimaiyyətin nəzərinə çatdırmışdır. Açıqlamaya görə 2018-ci ildə yanvar ayının 1-dən etibarən 15 aprel tarixinə qədər quruma 786 müraciət daxil olmuşdur. Həmin müraciətlərdən 73-ü məhz müxtəlif zorakılıq halları ilə əlaqədar olan müraciətlərdir. 73 müraciətdən 29-u psixoloji və ya emosional, 2-si seksual, 42-si isə fiziki zorakılıq hadisəsiylə bağlı olmuşdur (20).

Azərbaycanda zorakılıq mövzusuyla əlaqədar mövcud olan düşüncələri, mental dəyərləri və məlumatsızlığı nəzərə aldıqda bu müraciətlərin real faktların sayından qat-qat aşağı olduğunu anlamaq da çətin deyil. Çünki Azərbaycanda müəyyən zorakı davranışlar həm də tərbiyə metodu kimi qəbul olunduğundan, belə hallar çox zaman adi hal kimi qarşılanır (fiziki cəzalar, təhqir, danlama, başqalarının yanında alçaltma və s.). Eləcə də zorakılığı törədən şəxsdən qorxmaq, digər insanların zorakılığa məruz qalan insan haqqında nələr düşünəcəyindən irəli gələn utanma hissi və bəzən də baş verənlərə qarşı müəyyən qədər biganəlik, laqeydlik və etinasızlıqdan insanlar yaşadıqları zorakılıq hadisəsini gizli saxlamağa meyilli olurlar və bu da statistikaların tam da reallığı əks etdirməsinə əngəl törədir.

İndi isə yuxarıda statistik göstəricilərini qeyd etdiyimiz araşdırmalara daha ətraflı nəzər salaq və bu göstəriciləri əmələ gətirən zorakılıq hallarının yeniyetmə və gənclərin psixologiyasında necə əksini tapdığına baxaq.

Zorakılıq özlüyündə nəinki hər bir fərd üçün, eləcə də cəmiyyət üçün həm maddi-mənəvi sağlamlıq baxımından təhlükə ehtiva edən, həm psixososial inkişafa əngəl törədən, insanların bir-birinə və həyata olan inamını zədələyən, həm də qorxu və çarəsizlik kimi neqativ hisslər formalaşdıran sistematik bir problemdir. Zorakılığın özü və bu sadalanan zərərləri ilə hər hansı yetkin insan da qarşılaşdığı zaman psixoloji olaraq müəyyən sarsılma və aqibətində də müxtəlif çətinliklər yaşayır. Maddi və mənəvi cəhətdən özünü yenidən əvvəlki halına qaytara bilmək üçün çətin bir yol keçir. Özünübərpa prosesi yetkin, öz şəxsi kimliyini hərtərəfli formalaşdırmış, stabil bir işi və həyat tərzi olan insanlar üçün belə məşəqqətli keçdiyi halda, hələ yetkinliyə doğru addımlamaqda olan, öz şəxsi keyfiyyətləri, çevrəsi, peşəsi hələ tam müəy-

yənləşməyən, həyata dair düşüncələri və təcrübəsi formalaşmaqda olan yeniyetmə və gənc yaşlarında olan insanlar üçün bu proses daha ağır və ağrılı keçir. Çünki zorakılıqla bağlı yaşadıqları arzuolunmaz təcrübə onların formalaşmaqda olan şəxsi keyfiyyətlərinə, seçimlərinə, həyata və insanlara qarşı yanaşmalarına və s. zərərli yöndən təsir göstərir.

Yuxarıda qeyd olunan araşdırmaların iştirakçısı olmuş insanların məruz qaldıqları zorakılıq halları say etibarilə daha çox ailə daxilində baş verən hallardır. Yeniyetmə və gənclər yaşlarına uyğun olaraq daha çox ailədə və təhsil aldıqları müəssisələrdə vaxt keçirdikləri üçün belə halların yaşandığı ikinci əsas yer isə məktəb və digər təhsil ocaqlarıdır. Elə bu faktlar vəziyyətin nə dərəcədə ciddi və acınacaqlı olduğunu göstərir. Belə ki, yeniyetmə və ya gənc ailədən kənarda hansısa zorakılıq hadisəsiylə üzləşdikdə, bunun öhdəsindən gələ bilmək üçün köməyi, dəstəyi elə birinci ailəsindən gözləyir. Həmçinin, bu çətin prosesdə peşəkar yardıma ehtiyacı olanlara da psixoloqlar ailədə daha çox vaxt keçirməyi, ailə üzvlərinə isə ailədə rifah mühitinin yaradılması ilə həmin yeniyetmə və ya gəncə dəstəyin verilməsini məsləhət görürlər. Lakin problem ailədən başlayanda artıq həll yolu tapmaq da daha çətin və bəzən də mümkünsüz olur.

Ailə daxilində yaşanılan bu kimi hallar yeniyetmə və gənclərin, xüsusilə də oğlanların psixologiyasında ciddi fəsadlara səbəb olur və onları zorakı davranışlara meyilli olmağa, spirtli içki, narkotik vasitə və ya kimyəvi maddələrdən istifadəyə, evdən qaçmağa, yoldaşları ilə yola getməməyə, silahdan istifadəyə və s. sövq edir (3).

Geniş əhatədə "yeniyetmə zorakılığı" adlandırılan, əslində isə tay-tuş zorakılığı sayılan bütün halları özündə cəmləşdirən "bullinq" də bu mövzunun haqqında danışılmalı olan digər bir hissəsidir. Çünki bu halla yeniyetmələr daha çox məktəbdə, gənclər isə məktəb, universitet və digər yerlərdə öz sosial çevrələrində rast gəlirlər. Bu, yeniyetmə və gənclərin təlim və təhsil həyatına ciddi zərər vuran bir problemdir. Çünki istər təlim, istər maddi imkan, istərsə də fiziki görkəm və s. göstəriciləri baxımından "zəif" görünən yeniyetmənin və ya gəncin öz həmyaşıdları tərəfindən ələ salınması, qorxudulması, alçaldılması və s. onların bu mühitdən uzaqlaşmalarına səbəb olur.

Beləliklə, ailə və məktəb kimi insanın bir şəxsiyyət olaraq formalaşmasının təməli rolunu oynayan iki əsas sosial institutda onların formalaşma prosesinə belə köklü zərər vurulması cəmiyyətdə bir çox müxtəlif problemlərin yaranmasına və artmasına gətirib çıxarır. Ona görə də yeniyetməlik və gənclik yaş dövründə olan kəslərin belə hallarla qarşılaşdıqda nə etməli olduqlarını, bu vəziyyətdən necə çıxmalı olduqlarını onlara və onların çevrəsinə əhatəli şəkildə izah etməyə ehtiyac var. Bu zaman yerinə yetirilməli olan işlərin təbliğatı kütləvi hal almalıdır ki, cəmiyyətdə bu yolla yaranan problemlərin sayı azalsın. Belə olan halda ictimai təşkilatlar da bu mövzu üzrə öhdəliklər götürməlidirlər.

Ailə daxilində hər hansı zorakı davranışa məruz qalan və ya bu prosesə şahid olan, eləcə də öz çevrəsi tərəfindən bu kimi hallara məruz qalan yeniyetmə və gənclərdə daha çox təşviş pozuntusu, depressiya, təlimdə müvəffəqiyyətsizliklər, posttravmatik stress pozuntusu, antisosial davranış problemləri, fobiyalar, adaptasiya problemləri, özünəqapanma və s. kimi halların özünü göstərdiyi müşahidə edilir (14, s.159). Zorakılığa məruz qalan yeniyetmə və gənclər vəziyyətə uyğun olaraq fərdi, qrup və ailə terapiyalarına cəlb olunmalı, onların rahat bir şəkildə öz sosial həyatlarına qayıda bilmələri üçün peşəkar yardım göstərilməklə birlikdə həm də hər kəs öz əlindən gələni etməlidir. Bu prosesdə onların ailəsi, yaxınları, dostları da özlərini kənarda saxlamadan həmin fərdə psixososial dəstək göstərməlidirlər. Bu yanaşma onların özlərini daha təhlükəsiz, rahat hiss etmələrinə və yenidən özlərinə və ətrafa olan inamlarını bərpa etmələrinə kömək olacaqdır.

**Məqalənin aktuallığı.** Zorakılıq problemi ümumilikdə müxtəlif elmi-tədqiqat işlərinin mövzusu olmuşdur. Buna baxmayaraq yeniyetmə və gənclərin qarşılaşdıqları zorakılıq halları nisbətən az araşdırılmışdır. Bu baxımdan, biz bu mövzunun hazırda daha böyük əhəmiyyət kəsb etdiyi qənaətindəyik.

**Məqalənin elmi yeniliyi.** Yeniyetməlik və gənclik yaş dövrü insanın yetkin bir şəxsiyyət kimi formalaşmasında, öz çevrəsinin, peşəsinin, həyata və insanlara dair düşüncələrinin müəyyənləşməsində həlledici rola malik bir dövrdür. Buna əsasən bu dövrün bütövlükdə (11-25 yaş) zorakılıq mövzusu çərçivəsində birləşdirilərək öyrənilməsinin və buna müvafiq tədbirlərin müəyyənləşdirilməsi istiqamətində işlər görülməsinin problemin həllinə xidmət edəcək bir yanaşma olduğunu düşünürük.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalənin hazırlanması üçün toplanan materialların ümumiləşdirilməsindən alınan nəticələr müxtəlif sahədən olan insanların istifadəsi üçün yararlı olacaqdır. Bu nəticələr psixoloqlar, sosial işçilər, müəllimlər və elmi-tədqiqatla məşğul olan insanlar üçün məlumat mənbəyi kimi, eləcə də metodik vəsaitlərin hazırlanması üçün elmi material kimi istifadə oluna bilər.

## Ədəbiyyat

1. Allahverdiyeva İ.R., Tağıyeva G.B., Cavadov R.Ə. Ekstremal şəraitlərdə davranışın bəzi psixoloji məsələləri. BDU-nun elmi xəbərləri. Sosial-siyasi elmlər seriyası, 2000, № 3, s. 77-81.

2. BMT Uşaq Hüquqlar Konvensiyası, 1989.

3. Cavadov R.Ə., Tağıyeva G.B. Ekstremal şəraitlərdə psixoloji xidmət. Bakı, ADPU-nun nəşriyyatı, 2006, s. 152-200.

4.Cavadova A.Ə. Yeniyetmələrin qarşılıqlı münasibətləri və onun təzahür xüsusiyyətləri // Psixologiya jurnalı, Bakı, 2008, № 1, s. 111-117.

5. Əliyeva H.İ. Yeniyetmə şəxsiyyətinin formalaşmasında müəllimin peşəkarlıq səviyyəsi və şəxsi keyfiyyətlərinin rolu // Psixologiya jurnalı, Bakı, 2008, № 1, s. 103-110.

6. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2003.

7. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı, 2002.

8. Məişət zorakılığından zərər çəkmiş yetkinlik yaşına çatmamış şəxslər üçün xüsusiləşdirilmiş tibbi-psxioloji yardımın göstərilməsinə dair fərdi tövsiyələr. Bakı: İctimai Səhiyyə və İslahatlar Mərkəzi, 2013.

9. Pinheiro, Paulo Sercio. Uşaqlara qarşı zorakılıq üzrə Dünya Hedabatından sitat, BMT-nin Baş Katibinin Uşaqlara Qarşı Zorakılıqla bağlı tədqiqatı tərəfindən dərc edilmişdir. Cenevrə, 2006, s. 12

10. Uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq hallarının qarşısının alınması üzrə metodik vəsait. Bakı, 2017.

11. Vəliyev M., Mustafayev A. İnkişaf və yaş psixologiyası. Bakı: Elm, 2013, s. 134-193

12. Genç Y., Taylan H.H., Adıgüzel Y., Kutlu İ. Aile İçi Şiddetin Ergenlerin Şiddet Eğilimlerine Etkisi: Antalya Liseleri Örneği. Sakarya, 2017, s. 409-420.

13. Hökelekli H. Çocuk ve gençlerde şiddet olgusu ve önlenmesine yönelik öneriler // Değerler Eğitimi Dergisi, Bursa, 2007, s. 61-78.

14. Lök N., Başoğul C., Öncel S. Aile İçi Şiddetin Çocuk Üzerindeki Etkileri ve Psikososyal Desteğin Önemi// Psikiyatride Güncel Yaklaşımlar, Konya, 2016, s. 155-161.

15.Nair G. Gençlik şiddeti konusunda son on yılda ülkemizde yapılmış lisansüstü tezlerin

tematik açıdan değerlendirilmesi// Elektronik Sosyal Bilimler Dergisi, Düzce, 2019, s. 1929-1945.

16. Özcebe H., Sarp Ü., Çetin H. Adolesanlarda Şiddet Davranışları, Şiddet ve Okul: Okul ve Çevresinde Çoçuğa Yönelik Şiddet ve Alınabilecek Tedbirler // Bildiri Özetleri. İstanbul, 2006.

17. Özgür G., Yörükoğlu G., Arabacı L.B. Lise öğrencilerinin şiddet algıları, şiddet eğilim düzeyleri ve etkileyen faktörler// Psikiyatri Hemşireliği Dergisi, İzmir, 2011, s. 53-60.

18. Sevim Y., Ataş S. Üniversite gençlerinde şiddet eğilimliliği ve Öğrencilerin aile içi şiddete bakış açıları// Fırat Üniversitesi Sosyal Bilimler Dergisi, Elazığ, 2015, s. 285-301.

19. Furlong M., Morrison G. The school in school Violence: Definitions and Facts//Journal of Academic Social Science Studies. New – York, 2002, №2, p: 71 – 81.

20. http://www.sherg.az/site/id-46948/details#.XPDh9xYzbIU

**А.А. Керимли**

## Психологические характеристики подростков и молодых людей, подвергшихся насилию

### Резюме

Проблема насилия была предметом различных научных исследований в целом. Однако случаи насилия в отношении подростков и молодых людей расследованы относительно слабо. В этой связи мы считаем, что этот вопрос сегодня еще более актуален. Поэтому статья посвящена этой теме. В статье представлена подробная информация о различных статистических данных, причинах насилия, а также о психологических травмах, которые оно вызывает у подростков и молодых людей.

**A.A. Karimli**

## Psychological characteristics of adolescents and young people exposed to violence

### Summary

Generally the problem of violence has been the subject of various scientific studies. However, cases of violence against adolescents and young people have been poorly investigated. In this regard, we believe that this issue is even more significant today. Therefore, the article is devoted to this topic. The article provides detailed information on various statistics, the causes of violence, as well as the psychological trauma it causes in adolescents and young people.

**Redaksiyaya daxil olub:** 12.02.2021